# HƏYATIN ÖZÜ KİMİ TƏBİİ

Babam - Əli Vahid Çaylının şeirləri təkcə kağız üzərində yox, insanların qəlbində, xatirələrdə yaşayır. O, özünü heç vaxt əlçatmaz yüksəkliklərdə görməyib, çünki həqiqi şair olmaq elə sadəlikdə böyük olmaqdır:

*"Sən axtarma məni dərinliklərdə,*
*Dəryanın ən dayaz yerindəyəm mən."*

O, sözün dərinliyini tapmaq üçün dərinə getməyə ehtiyac olmadığını deyir. Onun misraları ən aydın, ən saf duyğuların aynasıdır. Çünki gözəllik hər zaman həyatın içində, onu görməyi bacaranlar üçün mövcuddur:

*"Gözəllik gəzirsən çəmənliklərdə,*
*Baharın ən gözəl selindəyəm mən."*

O, şeirlərində həyatın özü kimi təbii və canlıdır. Hər bahar yeni çiçəklər açdığı kimi, onun misraları da hər dəfə oxunduqca yenidən doğulur.



İnsanlar bəzən xatirələrə qayıdır, keçmişə boylanır və o misralarda özlərini tapırlar:

*"Dönər xatirəyə bəzən görüşlər,*
*Unudulmaz elin dilindəyəm mən."*

Babamın sözləri bir görüş kimi zaman keçsə də, unudulmur. Onun şeirləri göylərin sirli naxışları kimi ruhları bəzəyir:

*"Nəyisə axtarar qəmli baxışlar,*
*Alar göy üzünü sirli naxışlar."*

O, yalnız sevincin deyil, kədərin də şairidir. Çünki insan ruhunu tam ifadə edən sözlər həm sevinci, həm də dərdi paylaşandır. Həyatın ağırlığını çiyinlərində daşıyan bir karvan kimi...

*"Kədərə yüklənir qəmli karvanım,*
*Görən çəkəcəkmi yükün, dövranım?"*

Amma babamın qələmi bu taleni qəbul edib. O, öz yazısını, öz yolunu belə yaradıb:

*"Əli Vahidəm, yazım ən gözəl yazdı,*
*Taleyim bəxtimi beləcə yazdı."*

Bu misralarda yalnız bir şairin ruhu yox, onun mirasını daşıyan, sözlərini yaşadan bir nəvənin qüruru var. Mən babamın misralarında onu tapıram, onu duyuram və onun sözlərinin əbədiliyini yaşadıram.



***Zəhra XƏLİLLİ,***
***ADU-nin jurnalistika fakültəsinin I kurs tələbəsi***